

**XX əsrdə maestro Niyazinin təşəbbüsü ilə hər il sentyabrın 18-i böyük bəstəkar Üzeyir Hacıbəylinin anadan olduğu gün kimi respublikamızda xüsusi təntənə ilə qeyd edilirdi. Musiqi məktəblərində, mədəniyyət ocaqlarında, xüsusilə, konservatoriyamızın - indiki Musiqi Akademiyasının qarşısında Üzeyir Hacıbəylinin şərəfinə onun ölməz əsərlərindən fraqmentlər səsləndirilirdi.**

# Şuşalı Hacıbəylilərin şəcərəsi

Ötən əsrin 90-cı illərində Azərbaycanda hər şeyin bir-birinə dəydiyi vaxtda bu ənənə də unuduldu. Dahi bəstəkarın özfəaliyyət səviyyəsində xatırlanması həqiqətən, narahatlıq doğururdu. Unudulmaz Niyazinin təşəbbüsü 1995-ci ildə dövlət statusu aldı.

Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə hər il 18 sentyabr - Üzeyir musiqi günü kimi qeyd olunmağa başlandı. Bu nəcib qərar bütün insanların, musiqisevərlərin ürəyincə oldu.XX əsr Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olan dahi Üzeyir Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist, ictimai və siyasi xadim kimi çoxşaxəli fəaliyyətə malik idi.

Tədqiqatçıların apardıqları araşdırmalar nəticəsində Hacıbəylilərin nəsil şəcərəsi ilə bağlı maraqlı faktlar aşkar edilmişdir. Bu nəslin Azərbaycan tarixində, mədəniyyətində xüsusi rolu olub. Üzeyir Hacıbəylinin

### Ulu babası

Molla Hacı bəy Qarabağidir. O, Şuşa şəhərinin sayılıb-seçilən, savadlı, geniş məlumatlı şəxslərindən biri olub. O, şəhərin dini işləri ilə məşğul olan ilahiyyatçı alimlərindən idi. Hacı bəyin bir oğlu vardı.

### Babası

Məhəmməd Hacı oğlu 1814-cü ildə Şuşada anadan olmuşdu. O, mədrəsə təhsili almış və Qarabağ xanı İbrahimxəlil Cavanşirin hərəmi Bikə ağanın sarayında mirzə işləmişdir. Xanlıqda böyük hörmət və izzət sahibi olan Məhəmməd bəyin xidmətləri həmişə yüksək qiymətləndirilərdi. Hətta xan tərəfindən ona xüsusi torpaq sahələri də bağışlanmışdı. Xoşbəxt ailə sahibi olan Məhəmməd bəyin dörd oğlu olub. Qəhrəman, Əbdüləziz, Əbdülhüseyn və Hacı.

### Atası

Molla Məhəmməd bəyin üçüncü oğlu Əbdülhüseyn bəy 1840-cı ildə Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı, savadlı olduğu üçün ona "Mirzə" deyə müraciət edirdilər. Yaxın dostu vasitəsilə Mirzə Əbdülhüseyn Xan qızı Natəvanla tanış olmuşdu. Rəvan danışığı, bilgili olması Xurşudbanunun xoşuna gəlmiş, onu öz sarayına mirzə götürmüşdü. Sonralar isə öz süd bacısı Şirinbəyimi Əbdülhüseynə ərə vermişdi. Natəvanın məsləhəti ilə Əbdülhüseyn Hacıbəyli sonralar Xan qızının Ağcabədidəki təsərrüfatına başçılıq etmişdir. Onların beş övladı dünyaya gəlmişdi - iki qız, üç oğlan. Lakin bu ailənin xoşbəxtliyi çox da uzun çəkməyib. Atanın vaxtsız ölümü Hacıbəyliləri dərindən sarsıdıb...

### Anası

Şirinbəyim xanım Kərbəlayı Ələkbər bəyin qızı idi. Varlı və zəngin ailədə böyümüşdü. Hələ uşaqlıqdan ədəbiyyata böyük marağı olub, şeiri çox sevirmiş, Füzulinin əsərlərini əzbər bilirmiş. Ömrünün son illərini isə Bakıda oğlu Üzeyir bəyin yanında yaşamışdı.

### Üzeyir Hacıbəyli

Müasir Azərbaycan professional musiqisinin və milli operasının banisi, Şərqdə ilk operanın yaradıcısı, xalq artisti, professor, vaxtilə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan EA İncəsənət İnstitutunun direktoru vəzifələrində çalışmış Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli 18 sentyabr 1885-ci ildə Şuşa qəzasının Ağcabədi kəndində anadan olub. Üzeyir Hacıbəylinin məzmun və ruh etibarilə həm milli, həm də bəşəri əsərləri geniş şöhrət qazanaraq Azərbaycan musiqisini dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil etmişdir. Onun opera və operettaları müəllifinə dərin rəğbət və məhəbbət qazandırdı. Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafında Üzeyir bəydən başqa onun yaxın qohumları, qardaşları da fədakarlıq nümunəsi göstəriblər.

### Həyatının sirdaşı

Görkəmli bəstəkarın həyat yoldaşı Məleykə Hacıbəyli Tiflisdə Qızlar Gimnaziyasında oxumuş, pedaqoji fəaliyyət göstərmişdir. 1910-cu ildə Üzeyir ilə ailə qurduqdan sonra Bakıya köçmüşdür. O, paytaxtımızda da pedaqoji fəaliyyətini davam etdirmiş, Azərbaycanda konservatoriya təşkil olunandan sonra Üzeyirin məsləhəti ilə həmin ali məktəbə daxil olmuşdur. Dahi bəstəkarımızın ölümündən sonra "Arşın mal alan" musiqili komediyasının klavirinin Bakıda, "Koroğlu" operasının klavirinin isə Moskvada nəşr olunub işıq üzü görməsində böyük əməyi və xidməti olmuşdur. Məleykə Hacıbəyli 1966-cı ildə vəfat etmişdir.

### Qardaşları

Üzeyir bəyin böyük qardaşı Zülfüqar Hacıbəyli Azərbaycanın ilk operalarından olan "Aşıq Qərib"də xalq musiqisi ilə Avropa musiqisinin vəhdətini yaratmağa çalışmışdır.

Onun bir sıra librettolara - "50 yaşında cavan", "Varlı", "Evli ikən subay" və başqalarına yazdığı musiqi sadəliyi, aydınlığı və dramaturgiya baxımından seçilirdi. Zülfüqar Hacıbəyli "Almaz" filminə musiqi yazmışdır. İki operası "Nüşabə" və "Üç aşıq" yarımçıq qalmışdır.

Ceyhun Hacıbəyli Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. O, qardaşına bir çox musiqi əsərlərini yaratmaqda yaxından kömək etmiş, hətta "Leyli və Məcnun" operasının ilk tamaşasında İbn Səlam və Nofəl obrazlarını yaratmışdır.

Onun ən diqqətəlayiq xidmətlərindən biri də "Azərbaycan" qəzetinin yaradılmasında göstərdiyi böyük xidmətdir. Azərbaycan Demokratik Respublikasının parlament qəzeti olan "Azərbaycan"ın ilk redaktoru məhz Ceyhun Hacıbəyli olmuşdur. Təəssüf ki, 1920-ci ildə bolşeviklərin aprel çevrilişindən sonra Fransada səfərdə olan Ceyhun Hacıbəyli vətənə qayıda bilməmiş, ömrünü mühacirətdə başa vurmuşdur.

### Bacıları

Üzeyir Hacıbəylinin iki bacısı olub. Sayad və Abuhəyat. Üzeyir bəyin böyük bacısı Sayad xanım evdar qadın idi. Cavan yaşlarında həyat yoldaşını itirərək dörd uşağın tərbiyəsi ilə tək məşğul olub. 1900-cü ilin əvvəlində Bakıya köçərək ömrünün sonunadək Üzeyir bəyin evində yaşamışdır. İkinci bacısı Abuhəyat da həyat yoldaşını itirdikdən sonra Üzeyir bəyə sığınmışdır.

### Niyazi

Maestro Niyazi Üzeyir Hacıbəylinin qardaşı Zülfüqarın oğludur. Görkəmli dirijor, ictimai xadim, xalq artisti, beynəlxalq mükafatlar laureatı Niyazinin musiqiçi kimi formalaşmasında Üzeyir Hacıbəylinin güclü təsiri olmuşdur. Azərbaycan musiqisinin inkişafında Niyazinin xidmətləri böyükdür. Dövlət Simfonik Orkestrinin təşkilində fəal iştirak etmiş Azərbaycan bəstəkarlarının, xüsusilə də Üzeyir Hacıbəylinin "Koroğlu" operasındakı qeyri-adi dirijorluq istedadı ona şöhrət gətirmişdir. Niyazinin dirijorluq etdiyi əsərlər Azərbaycan musiqisinin qızıl fonduna daxil edilmişdir.

### Çingiz Hacıbəyli

Zülfüqar bəyin ikinci oğludur. Azərbaycanın əməkdar incəsənət xadimi olub, dirijor idi. O, 1931-ci ildə Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının orkestrində Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin rəhbərliyi ilə skripkaçı kimi fəaliyyətə başlamışdır.

Onun yaradıcılıq fəaliyyəti əsasən Azərbaycan Musiqili Komediya Teatrı, Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin Simfonik Orkestri, Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri ilə bağlı olmuşdur. 1938-ci ildən 1953-cü illərə qədər baş dirijor kimi çalışan Çingiz Hacıbəyli ömrünün sonunadək əmisinin adını daşıyan Dövlət Simfonik Orkestrinə dirijorluq etmişdir.

### Soltan Hacıbəyli

Üzeyir Hacıbəylinin əmisi oğlu İsmayılın övladıdır. Görkəmli Azərbaycan bəstəkarlarından biridir. Onun musiqiçi kimi formalaşmasında Üzeyir Hacıbəylinin böyük rolu olmuşdur. Soltan müəllimin bəstəkarlıq sənətini seçməsinə də məhz Üzeyir bəyin böyük təsiri var idi.

Çünki Soltan Hacıbəyli uzun illər məhz Üzeyir bəyin evində yaşamışdır. O, məşhur "Karvan" simfonik əsərini Üzeyir Hacıbəyliyə həsr etmişdir. Soltan Hacıbəyli "Gülşən" baletinin, "İsgəndər və çoban" operasının, eləcə də bir neçə simfoniya, uvertüra, mahnı, romans və digər musiqi əsərlərinin müəllifidir.

### Osman Hacıbəyli

Osman İsmayıl oğlu Hacıbəyli isə 1924-cü ildə Şuşa şəhərində anadan olub. Soltan Hacıbəylinin qardaşıdır. Milli teatrın inkişafında özünəməxsus xidmətləri var. Ömrünün 40 ilini Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına bağlayan Osman Hacıbəyli burada 100-dən çox rol yaratmışdır. 1969-cu ildə əməkdar artist fəxri adına layiq görülmüş Osman Hacıbəyli komik rolları ilə xüsusi diqqət çəkərdi. O, 1979-cu ildə vəfat edib.

### Züfüqar Hacıbəyli

Üzeyir bəyin Zülfüqar adlı həm qardaşı, həm də əmisi nəvəsi olub. Zülfüqar adlanan əminəvəsi rustatar məktəbində və Qori Seminariyasında Üzeyir bəylə birgə oxumuşdur. O, 1944-cü ildə seminariyanın orkestrində fəal iştirakına və əla ifaçılıq bacarığına görə Üzeyir Hacıbəyli və M.Maqomayevlə birlikdə pulla mükafatlandırılmışdır.

O, bir neçə il müəllimlik etsə də, vaxtsız əcəl onu tez haqladığından musiqi sahəsində öz qabiliyyətini göstərə bilməmişdir. Üzeyir bəy Zülfüqarın vaxtsız ölümündən bərk sarsılaraq dərin hüzn və kədər hissi keçirmişdir. Onu xalqımızın "yıxılan sütunu" adlandırmışdır.

### İsmayıl Hacıbəyli

İsmayıl Hacıbəyli Soltan bəyin oğludur. Əməkdar mədəniyyət yə incəsənət xadimidir. Bəstəkarlar İttifaqının üzvüdür. Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri var. Hazırda musiqi kadrlarının yetişməsində böyük əmək sərf edir.

**Şuşasız qalmış şuşalı Hacıbəylilərin xoş sorağı indi məmləkətlər dolaşır. Fransadan vətənə dönə bilməyən Ceyhun Hacıbəylinin nəvə və nəticələri, nəhayət, Bakıya gəlir, amma Şuşaya gedə bilmirlər. Bir vaxt Şuşa Hacıbəylilərsiz darıxardı, indi də Hacıbəylilər Şuşasız qalıb. Türkün səbri də böyük olur, savaşı da. Bütün şuşalılar kimi Hacıbəylilərin də doğma yurda qayıdacağı o müqəddəs gün mütləq olacaq!**

**● F.XƏLİLZADƏ**